


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

19 may 2023-cü il
cümə

1933-cü ildən çıxır
№ 19 (3633)

**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

*Heydər Əliyev,*
*ümummilli lider*

## Rəsmi xronika

*Dövlətimizin başçısı mayın 16-da İordaniya Haşimilər Krallığı parlamentinin Nümayəndələr Palatasının sədri Əhməd Əs-Səfadini qəbul edib.*

*Azərbaycan Prezidenti İlham Əliyev mayın 17-də Slovakiya parlamentinin sədri Boris Kolları qəbul edib.*

*Ölkəmizin rəhbəri mayın 17-də Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Mixail Myasnikoviçi qəbul edib.*

*Mayın 17-də dövlətimizin başçısı Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edib.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri Nosivive Mapisa-Nqakulanı qəbul edib.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi xanım Njupuo Yap Mariatunu qəbul edib.*

# QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFI PRİORİTETDİR




Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində XVI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” və XXVIII Azərbaycan Beynəlxalq Qida Sənayesi - “InterFood Azerbaijan” sərgiləri ilə tanış olublar.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlətimizin başçısına və birinci xanıma sərgilərlə bağlı məlumat verdi.

Bildirildi ki, hər il olduğu kimi bu il də sərgilərə iştirakçılar və ziyarətçilər tərəfindən böyük maraq göstərilir. Bakı Ekspo Mərkəzinin bütün mümkün pavilyonlarını və açıq sahəsini əhatə edən sərgilərdə rekord sayda milli və regional stendlər nümayiş olunur. Ümumilikdə sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edir, 9 ölkə isə milli stendlərlə təmsil olunur. “Caspian Agro” və “InterFood Azerbaijan” sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, Rusiyanın regional qrupları, eləcə də builki debütant ölkə Tunis və Çexiyadan olan milli qruplar iştirak edirlər.

Dövlətimizin başçısı və birinci xanım sərgidə “Grow Group Azərbaycan”, “Maschio Gaspardo”, “New Holland”, “Rostselmaş”, “MySilo”, “Rauch Landmaschinen”, “SwissGrow”, “AfiMilk”, “Gowan”, “Can-Pa” şirkətlərinin, Çexiyanın, İtaliyanın, Belarusun, Gürcüstanın, ABŞ-ın və Niderlandın stendləri ilə tanış oldular. Stendlərdə ən müasir kənd təsərrüfatı texnikaları, əkin-biçin aqreqatları və kənd təsərrüfatı məhsulları təqdim olunur.

Naxçıvan Muxtar Respublikasının stendi ilə tanışlıq zamanı bildirildi ki, kənd təsərrüfatı məhsullarının istehsalında ərzaq və qida təhlükəsizliyi başlıca şərtlərdən biridir və Naxçıvan fermerləri daha çox orqanik məhsulları yetişdirməyə üstünlük verirlər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldular. Burada ümummilli lider Heydər Əliyevə həsr olunan xüsusi təqdimat hazırlanıb. Bildirildi ki, bu il xalqımız müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Buna görə sərgilər məhz ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Azərbaycanda aqrar sahənin inkişafı ulu öndərin fəaliyyəti ilə sıx bağlıdır. Ümummilli lider Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar ölkə iqtisadiyyatının, o cümlədən aqrar sektorun davamlı inkişafına real zəmin yaradır.

Pavilyonda, həmçinin Elmi-Tədqiqat İnstitutlarının ən son nailiyyətləri, yaşıl enerji mənbələrinə dair qurğu və məhsullar nümayiş olunur.

Burada müxtəlif yarış və müsabiqələrin qalib aqrar startapçıları tərəfindən arıçılıqda “varatoz” gənəsinə qarşı mübarizə, ənənəvi balıqyetişdirmə üsullarını hidroponik əkinçiliklə birləşdirən sistem, bioqaz, alternativ enerji mənbələrindən əldə edilmiş hidrogen qazı, ağıllı istixana idarəetmə sistemi, alaq otlarını lazer sistemi ilə təmizləyən aqrorobot, avtomobillər üçün portativ qida bloku, külək və günəş izləmə qurğuları, idarəolunan günəş panelləri, uzaqdan idarəolunan sayğaclar, külək turbinləri, iqlim stansiyası, dəqiq suvarma idarəçiliyi üçün sensor, suvarmada istifadə olunan günəş enerjisi ilə işləyən inventorlar sərgilənir.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da innovasiyaların və müasir texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir. Kənd təsərrüfatının intensiv inkişafı həm də aqrar sektorda innovasiyaların tətbiqindən birbaşa asılıdır. Aqrar sahələrdə innovasiyalardan istifadə günümüzün çağırışı olduğundan sərgilər kənd təsərrüfatı məhsullarının istehsalçılarına bu innovativ yeniliklərlə əyani tanış olmağa imkan verir.

Sərgi çərçivəsində açıq sahədə kənd təsərrüfatında istifadə olunan texnikalar nümayiş olunur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Azərtexnika” MMC, “Agritex” MMC, “Agromotors” şirkətlərinin və Gəncə avtomobil zavodunun texnikaları ilə tanış oldular.

# Nazir Vilayət Eyvazov Salyanda vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 17-18-də Salyan Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Salyan şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Hacıqabul, Kürdəmir, Salyan, Şirvan şəhər və rayonlarından qəbula gələn 153 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

*Ardı 2-ci səhifədə.*



# Nazir Vilayət Eyvazov Salyanda vətəndaş qəbulu və sıra baxışı keçirib



*Əvvəli 1-ci səhifədə.*

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 19-u Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 72 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



## "BU GÜNÜN HÜQUQU, SABAHIN HÜQUQŞÜNASI"

### Konfrans ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub



Bu günlərdə Azərbaycan Respublikasının Ali Məhkəməsi və ADA Universitetinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Bu günün hüququ, sabahın hüquqşünası" mövzusunda keçirilən konfransda DİN-in Polis Akademiyasının kursantları da iştirak edib.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə konfransı açıq elan edərək ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsinin prioritet istiqamətlərdən biri olduğunu diqqətə çatdırıb.



Qeyd olunub ki, təhsilə həyatımızın ən gərəkli, ən mühüm sahəsi kimi diqqət yetirən ulu öndər onun milli məqsədlərə, mənafelərə xidmət etməsinə çalışıb, bir sözlə, təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb.

Sonra Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri İnam Kərimovun, Milli Məclis sədrinin birinci müavini Əli Hüseynlinin, Milli Məclisin deputatı Kamal Cəfərovun, ADA Universiteti Hüquq fakültəsinin dekanı Rəşad İbadovun konfransın mövzusunu özündə ehtiva edən çıxışları dinlənilib.

Daha sonra Bakı Dövlət Universitetinin, ADA Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Milli Aviasiya Akademiyasının, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbələri müxtəlif mövzular üzrə çıxış ediblər.

DİN-in Polis Akademiyasının 4-cü kurs kursantı Turqut Süleymanlının "Təhlükəsiz cəmiyyəti necə görürəm" mövzusunda təqdimatı isə iştirakçılar tərəfindən maraqla qarşılanıb.

*"Polis"*

## HƏRBÇİLƏRİMİZİN SƏDAQƏT ANDI



Mayın 13-də Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə daxili qoşunlar komandanının müavini-şəxsi heyət üzrə idarənin rəisi, general-mayor İnqilab Muradov iştirak edib.

Tədbir ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Hərbi and içən əsgərlər Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri, polkovnik Telman Həsənov əsgərlərə hərbi andın mənasını izah etməklə yanaşı, xalqına, dövlətinə sədaqət andı içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunlar komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.



Təbrikdə, həmçinin, xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şərəfli döyüş yolu keçdiyi, şəxsi heyətinin fədakarlığı və 4 hərbi qulluqçunun Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülməsi diqqətə çatdırılıb. Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edib, onları cəsur və intizamlı olmağa, hərbi bilikləri öyrənməyə, daim Vətəni müdafiə etməyə səsləyiblər.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

## ŞAHMAT ÇEMPİONATI KEÇİRİLDİ



Bu günlərdə DİN-in İdman Cəmiyyətində ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş şahmat üzrə daxili işlər orqanları əməkdaşlarının çempionatı keçirilib.

Dövlət Himni səsləndirildikdən sonra turnirə start verilib.

Turnirdə 11 komandanın tərkibində 22 polis əməkdaşı zehni-strateji bacarığını nümayiş etdirib.

On bir turdan ibarət yarışın nəticələrinə görə, Daxili Qoşunların əsgəri Vüqar Əsədli 1-ci, Polis Akademiyasının kursantı Əlisultan Əliyev 2-ci, Baş Mühafizə İdarəsinin əməkdaşı polis serjantı Fuad Qurbanov isə 3-cü yeri tutub.

Qeyd edək ki, yarışın baş hakimi DİN-in İdman Cəmiyyətinin İdmanın təşkili şöbəsinin rəisi, polis polkovniki Munir Orucov olub.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*




# Futzala yekun vurulub

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş futzal üzrə Bakı birinciliyi başa çatıb.**

Bir neçə gün davam edən çempionatda Bakı Şəhər Baş Polis İdarəsinin və tabeliyində olan Rayon Polis idarələrinin, Metropolitendə Polis İdarəsinin, eləcə də Dövlət Yol Polisi orqanlarının komandaları yarışıb.

Açılış mərasimində çıxış edən Bakı şəhər BPİ-nin rəisi, polis general-mayoru Əkbər İsmayılov komandalardan baxımlı oyun gözlədiyini deyərək güclülərin qalib olmasını arzulayıb.

Maraqlı anlarla yaddaqalan yarışın ən güclü dördlüyündə isə Qaradağ, Xətai, Pirallahı və Dövlət Yol Polisi idarələrinin komandaları top qovub. Rəqiblərindən daha yaxşı futbol performansı nümayiş etdirən Qaradağ və Xətai komandaları finalda qarşılaşıb. Bakı şəhər BPİ-nin rəhbərliyinin, eləcə də azarkeşlərin



maraq və coşquyla izlədiyi final oyunu Qaradağ komandasının 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Fəxri kürsünün 3-cü pilləsində isə Pirallahı komandası qərarlaşıb.

Qalib komandalar Baş İdarə rəisi Ə.İsmayılov tərəfindən diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Qaradağ RPİ Post-Patrul Xidməti Bölüyünün polis nəfəri, polis serjantı Təmkin Şahgəldiyev turnirin ən yaxşı oyunçusu adına layiq görülüb.

*Teymur Əlizadə,*
*polis mayoru*

# LAÇIN, sən azadsan!

İllər idi ki, laçınlılar doğma yurd-yuvalarından, ev-eşiklərindən didərgin düşmüşdülər. İllər idi ki, gözləri yoldaydı. Onların sevinclərinin də, kədərlərinin də bir adı vardı: Vətən həsrəti! İllər keçsə də yurd ağrılı, yurd yanğılı xatirələr hər il mayın 18-də vərəqlənirdi…



Hər çətinliyin sonu olduğu kimi, bu həsrətin də sonu gəldi. Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında igid oğullarımız qanları, canları bahasına 44 günlük Vətən müharibəsində qəhrəmanlıq salnaməsi yazdılar. Bu müharibədə dünya həm hərbi, həm də diplomatik gücün zəfərinə şahidlik etdi. Düşmən Laçından qanlı caynaqlarını çəkməyə məcbur oldu, daha doğrusu məcbur edildi.

Bu gün orada, zirvələrində qartalları qanad açıb süzən Laçının dağları, buz bulaqları, uzun müddət doğma nəfəsdən uzaq qalmış olan-qalan binaları, bizə - ordumuza, polisə əmanətdir. Artıq iki ildir hüququn və qanunların təməlləri atılır Laçında. Evlərinə dönəcəkləri günləri səbirsizliklə gözləyən laçınlıların yurd-yuvalarına qayıdacaqları gün çox yaxındadır…

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Uşaqlarla bağlı müşavirə

**Xətai Rayon Polis İdarəsində "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"nın icrası ilə bağlı müşavirə keçirilib.**




Bakı şəhər BPİ-nin təşəbbüsü ilə keçirilən iclasda Rayon Polis İdarəsinin əməkdaşları, Sosial Xidmətlər Agentliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, Xətai Rayon İcra Hakimiyyətinin səlahiyyətli şəxsləri və rayon ərazisindəki ümumtəhsil müəssisələrinin direktorları iştirak edib.

Müşavirəyə qeyri-hökumət təşkilatlarından "Azərbaycan Uşaqları" və Ümidli Gələcək Sosial Təşəbbüslər İctimai birliklərinin nümayəndələri də qatılıb.

Tədbiri ümummilli lider Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə açan Xətai RPİ-nin rəisi, polis polkovniki Vaqif Müslümov rayon ərazisində uşaq hüquqlarının qorunması istiqamətində aparılan profilaktik-maarifləndirici tədbirlər barədə məlumat verib.

Daha sonra Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin bölmə rəisi, polis polkovniki İbrahim İsmayılov və baş inspektor, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində aidiyyəti dövlət, eləcə də qeyri-hökumət təşkilatları ilə əlaqəli işin təkmilləşdirilməsi mövzusunda çıxış ediblər.



Həmçinin iclasda Strategiyadan irəli gələn işlərin icrası ilə bağlı iştirakçılara məlumat verilib, qarşıda duran vəzifələrə toxunulub, mövzu ilə əlaqəli səsləndirilən təkliflər müzakirə edilib.

# "Ərgünəşin ər oğulları" onun yadigarıdır...


Asif Məmmədov


Azər Məmmədzadə

***Torpaqlarımıza düşmən təcavüzü başlayanda ərazi bütövlüyümüzü qorumaqdan ötrü yüzlərlə polis əməkdaşı kimi döyüşə atılanlardan biri də Asif Məmməd oğlu Məmmədov olub.***

Xalqımızın sınağa çəkildiyi ağır, məşəqqətli illərdə o, Füzuli Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti Bölüyünün komandiri, 1995-ci ildən isə Şəxsi heyətlə iş üzrə rəis müavini vəzifəsində xidmət edib. Azərbaycanın Milli Qəhrəmanları - Pəhlivan Fərzəliyevin və Nazim Quliyevin komandiri olan Asif Məmmədov Füzuli rayonunun Horadiz qəsəbəsinin və 23 kəndin işğaldan azad olunmasında həmkarları ilə birgə şücaətlər göstərib, düşmənə qan udturub.

Qeyd edək ki, Asif Məmmədov 1954-cü ildə Füzuli rayonunun Kürdmahmudlu kəndində müəllim ailəsində doğulub. O, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, daha sonra Polis Akademiyasında təhsil alıb. Sahə inspektoru kimi xidmətə başlayıb və Şəxsi heyətlə iş üzrə rəis köməkçisi vəzifəsinədək yüksəlib. Həmkarımız 2010-cu ildə xidmətdə olmanın son yaş həddi ilə təqaüdə çıxıb, 2022-ci ildə isə dünyasını dəyişib.

O, Füzuli polisinin keçdiyi döyüş yolu haqqında 2003-cü ildə dərc edilən "Ərgünəşin ər oğulları" adlı kitabın redaktoru olub.

Vətənpərvərlik estafetini və onun xidmət yolunu bu gün oğlu davam etdirir. Yasamal RPİ 29-cu Polis Şöbəsinin təhqiqatçısı, polis kapitanı Azər Məmmədzadə xatirələrini bölüşərkən qeyd etdi ki, torpaqlarımızın işğaldan azad edilməsi atasının ən böyük arzusu idi, o da həyata keçdi.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Gənc əməkdaşlara tövsiyələr verilib

**Polis əməkdaşlarının mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə Bərdə, Tərtər, Ağdam və Ağcabədi Rayon Polis şöbələrində seminarlar təşkil edilib.**

Daxili İşlər Nazirliyinin "2022-2023-cü illərdə daxili işlər orqanlarında ideoloji işin aparılması üzrə" Tədbirlər Planının icrası ilə bağlı keçirilən məşğələlərdə DİN-in Şəxsi Heyətlə İş İdarəsinin şöbə rəisi, polis polkovnik-leytenantı Firdovsi Nəsirov və baş inspektor, polis polkovniki Laçın Paşayev mühazirə ilə çıxış ediblər.

Çıxışlarda "Heydər Əliyev İli" ilə bağlı daxili işlər orqanlarını əhatə edən tədbirlər, korrupsiya hallarına qarşı mübarizə məsələləri, eləcə də Etik Davranış Kodeksinin tələbləri gənc əməkdaşların diqqətinə çatdırılıb. Həmçinin xidmət zamanı və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına, eləcə də cəmiyyətdə qəbul olunmuş mənəvi-əxlaqi və mədəni davranış, ailə-məişət normalarına riayət edilməsinin vacibliyi vurğulanıb.

Görüşlər zamanı ümummilli lider Heydər Əliyevin zəngin həyat və fəaliyyəti ilə bağlı məlumatlara da xüsusi yer ayrılıb, "Heydər Əliyev və 44 günlük Zəfər yolu" adlı sənədli film nümayiş etdirilib.

# Vətən gəncləri çağırır

Tərtər rayonunda həqiqi hərbi xidmətini başa vurmuş gənclərlə görüş keçirilib. Görüş gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi məqsədilə DİN Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşları tərəfindən təşkil edilib.





Görüşə dəvət olunan gənclərə polisin tarixi, daxili işlər orqanlarına xidmətə qəbul qaydaları, həmçinin DİN sistemində təhsil almaq imkanları barədə ətraflı məlumat verilib.

Daxili işlər orqanlarının ölkəmizdə təmin etdiyi etibarlı sabitliyi müstəqillik tariximizin ən mühüm nailiyyətlərindən biri kimi qeyd edilib, bu taleyüklü xidmətdə hər bir sağlam gəncin iştirak etmək, polisin şərəfli tarixinə öz adını yazmaq imkanının olduğu vurğulanıb. Eyni zamanda, söhbət əsnasında qəbulla bağlı zəruri məlumatlar iştirakçıların nəzərinə çatdırılaraq, onları maraqlandıran suallar cavablandırılıb. Bundan əlavə, tədbirin keçirildiyi mərkəzin foyesində aidiyyəti məlumat-reklam posterləri, plakatlar yerləşdirilib və iştirakçılara müvafiq bukletlər paylanılıb.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# “ASAN xidmət” mərkəzlərində Daxili İşlər Nazirliyinin göstərdiyi xidmətlər üzrə vakant kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə

Daxili İşlər Nazirliyi Salyan, Masallı, Quba, İmişli, Kürdəmir, Şamaxı, Tovuz və Ağcabədi “ASAN xidmət” mərkəzlərində Daxili İşlər Nazirliyinin göstərdiyi xidmətlər üzrə vakant kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Salyan, Masallı, Quba, İmişli, Kürdəmir, Şamaxı, Tovuz və Ağcabədi rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüterdə işləmək bacarıqları olan, məsuliyyətli, diqqətli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2023-cü ilin may ayının 1-dən 31-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

Müraciət etmiş şəxslər müsabiqədə iştirak etmək üçün dəvət edilərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:

- ***Şəxsiyyət vəsiqəsi;***
- ***Ali təhsil haqqında diplom;***
- ***Əmək kitabçası (olanlar üçün);***

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**şəhər: (012) 590-80-63, (012) 590-80-93**
**daxili: 80-63, 80-93**

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ

## Polis orqanlarında orta rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 50 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır.

Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumları istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

### Müsabiqənin test imtahanının proqramı

Azərbaycan Respublikasının Konstitusiyası, Dövlət və hüquq nəzəriyyəsi, Cinayət hüququ, Cinayət prosesi, İnzibati hüquq, Kriminalogiyanın əsasları, BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi, «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.

Müsabiqə qaliblərinin təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcək.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2023-cü il may ayının 02 - dən iyun ayının 02 - dək **http://www.mia.gov.az** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- ***şəxsiyyət vəsiqəsi;***
- ***ali təhsil haqqında diplom;***
- ***hərbi bilet;***
- ***əmək kitabçası (olanlar üçün);***

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır:

***Qaçış: 100 (yüz) metrə – 14 saniyə, 1000 (min) metrə – 3.40 dəqiqə;***

***Turnikdə dartınma:***

***- çəkisi 80 kiloqramadək - 12 dəfə;***

***- çəkisi 80 kiloqramdan yuxarı - 8 dəfə;***

***Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi – 27 dəfə;***

***Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi – 27 dəfə.***

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin **www.mia.gov.az** ünvanlı Veb saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-93-51; (012) 590-92-37; (012) 590-92-21; (012) 590-93-64; (012) 590-95-23.**

# “Ev sahibi” dələduz çıxdı...




Bakı şəhər sakini Əli Hüseynov hüquqlarının pozulması ilə bağlı Xətai RPİ-nin 34-cü Polis Şöbəsinə şikayət edib. O, izahatında bir müddət əvvəl sosial şəbəkə hesabından saytların birində kirayə ev tutmaq adı ilə özünü ev sahibi kimi təqdim edən şəxsə şəxsiyyət vəsiqəsinin surətini göndərdiyini bildirib. Şikayətçi sonradan tanımadığı həmin şəxsin onun şəxsiyyət vəsiqəsindən istifadə edərək vətəndaşlara qarşı dələduzluq əməlləri törətdiyindən xəbər tutduğunu yazıb.

Şöbə əməkdaşları tərəfindən araşdırılma aparılıb və qısa zaman kəsiyində vətəndaş Ə.Hüseynovun hüquqları bərpa olunub.

*Teymur Əlizadə,*
*polis mayoru*






# İDMAN XRONİKASI

## Yarışın qalibi polislər oldu



Biləsuvarda ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş idarə, müəssisə və təşkilatlar arasında futzal üzrə rayon birinciliyinə yekun vurulub.

28 aprel tarixində start götürən yarışın final oyununda Biləsuvar RPŞ-nin komandası Təhsil sektorunun komandası üzərində qələbə qazanıb.

Sonda qaliblər kubok, diplom və medallarla mükafatlandırılıb.

*Məhəmməd Rzayev,*
*polis kapitanı*





**Bu günlərdə ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş paurliftinqin benc-press və deadlift növü üzrə açıq Azərbaycan kuboku keçirilib.**

Yarışda Quba Rayon Polis Şöbəsinin əməkdaşı, polis serjantı Məhərrəm Qəhrəmanov 95 kiloqram çəki dərəcəsində iki qızıl, bir gümüş medal qazanıb.

◆◆◆




**Bakıda atıcılıq üzrə “Dünya Kuboku 2023” yarışları sona çatıb.**

Kişilər arasında 25 metr məsafəyə tapançadan cəld atəş üzrə yarışın final mərhələsində almaniyalı Florian Peter 27, Fransa təmsilçisi Klemen Besua 32 xalla gümüş və Çin idmançısı Yu Heng Li 33 xal toplayaraq yarışın qalibi olublar.

Qeyd edək ki, qadınlar arasında 50 metr məsafəyə tüfəngdən 3 mövqedən atəş yarışlarında Britaniya təmsilçisi Şona Makintoş I, Norveç idmançısı Canett Heqq Duestad II, almaniyadan Liza Müller isə III yerlə kifayətlənib.

Ümumilikdə medalların sayına görə Çin 1-ci, Hindistan 2-ci, İran isə 3-cü yerdə qərarlaşıblar.

Yarışda idmançıları mükafatlandırmada Avropa Atıcılıq Konfederasiyasının rəhbəri Aleksander Ratner və Beynəlxalq İdman Atıcılığı Federasiyasının icraiyyə komitəsinin üzvü Hazem Hosni də olub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Çapa imzalanmışdır 18:30
Qiyməti 40 qəpik